YANVAR-MAY 2020

# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*



İCMAL

YENİ TƏYİNATLAR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ UĞURLARI

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

TƏLTİFLƏR

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

# YENİ TƏYİNAT



**Dövlət Proqramı çərçivəsində İtaliyanın "Academia Teatro Alla Scala Ballet School" ali təhsil müəssisəsindən "Vokal ifaçılıq" ixtisası üzrə məzun olmuş Fidan Hacıyeva (Naylor) Daxili Qoşunların nümunəvi göstərici hərbi orkestrinin rəis müavini - mahnı ansamblının rəisi vəzifəsinə təyin edilib. F.Hacıyeva, eyni zamanda Ə.Bakıxanov adına 6 nömrəli uşaq musiqi məktəbinin direktorudur.**

# YENİ TƏYİNAT

RÜBLÜK İCMAL



## ELNUR ƏLİYEV

Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın "King’s College London" ali təhsil müəssisəsindən "Beynəlxalq biznes hüququ" ixtisası üzrə magistratura təhsil səviyyəsindən məzun olmuş Elnur Əliyev Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin olunub. Yeni təyinat münasibətilə E.Əliyevi təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzu edirik!

# YENİ TƏYİNAT




## MUNİR MƏMMƏDZADƏ

Dövlət Proqramı çərçivəsində İsveçrənin "University of Fribourg" universitetinin Uşaq hüquqları sahəsi üzrə magistratura təhsil səviyyəsindən məzun olmuş Munir Məmmədzadə UNICEF-in Özbəkistan üzrə ölkə rəhbəri vəzifəsinə təyin olunub. Yeni təyinat münasibətilə M.Məmmədzadəni təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzu edirik!

# YENİ TƏYİNAT

YANVAR-MAY 2020



## ƏLİ ƏHMƏDOV

Dövlət Proqramı çərçivəsində ABŞ-ın "Johns Hopkins University" universitetinin "Dövlət Siyasəti" ixtisası üzrə magistratura təhsil səviyyəsindən məzun olmuş Əli Əhmədov Azərbaycan Respublikası Mərkəzi Bankın Baş direktoru vəzifəsinə təyin edilib. Ə.Əhmədova fəaliyyətində uğurlar arzu edirik!

## KAMAL CƏFƏROV



Avstriyanın "The International Anti-Corruption Academy" universitetinin "Anti-korrupsiya elmləri" sahəsində məzun olmuş Kamal Cəfərov cari ilin fevral ayında növbədənkənar parlament seçkiləri nəticəsində 63 saylı Sabirabad birinci seçki dairəsindən deputat seçilib. K.Cəfərova fəaliyyətində uğurlar arzu edirik!










## DÖVLƏT PROQRAMI MƏZUNLARI PANDEMİYA İLƏ MÜBARİZƏNİN ÖN CƏBHƏSİNDƏ

Dövlət Proqramı çərçivəsində xaricdə tibb təhsili almış və yüksəkixtisaslı mütəxəssislər kimi yetişən məzunlar Azərbaycanda koronovirusa yoluxan ölkə vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin olunmasında və ümumilikdə pandemiya ilə mübarizə sahəsində öz töhfələrini verirlər. Pandemiya ilə mübarizədə Dövlət Proqramı məzunlarından Fərrux Sədirov, Qumral Ələkbərova, Cavid Əhmədov, Vüqar Quliyev, Emil Qasımov, Mədinə Abdullayeva, Tural Qulu, Əşrəf Həsənzadə, Tural Bayramov, Şəhriyar Fətullayev, Vasif Əliyev, Zərifə Abdullayeva, Turanə Rəsulova, Cəbrayıl Cəbrayılov, Eldəniz Hüseynov və başqaları iştirak edir.

# MƏZUNLARIN UĞURLARI




Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın Oksford Universitetində "Mühəndislik elmləri" ixtisası üzrə doktorantura səviyyəsində təhsil alan Tərlan Süleymanov cari ilin fevral ayının 7-də "Research Project VIVA" imtahanını uğurla keçərək (with minor corrections) "Robotics" sahəsi üzrə fəlsəfə elmləri doktoru adını qazanıb.

T.Süleymanov tədqiqat işində sürücüsüz avtomobillərin kamera və lazerdən istifadə edərək ətraf mühiti qavraması üçün yeni metodlar təqdim edib. Dissertasiyanın əsas yeniliklərdən biri dərin öyrənmə (deep learning) və kompüter görmə (computer vision) metodlarından istifadə edərək görünən yol kənarlarının tapılması (visible road boundary detection) və görünməyən yol kənarlarının isə təxmin edilməsindən (occluded road boundary inference) ibarətdir. Sözügedən araşdırması ilə əlaqədar onun beynəlxalq konfranslarda 6 məqaləsi dərc olunmuşdur. Bundan başqa Dövlət Proqramı məzunu "Mobile Robotics Group", "Mansfield College" və "Oxford Union" təşkilatlarınında üzvüdür.



# MƏZUNLARIN UĞURLARI



Elxan Yusifov Dövlət Proqramı çərçivəsində Kanadadın Toronto universitetindən bakalavriat səviyyəsi üzrə "Neyroelm" və "Hüceyrə və Molekulyar Biologiya" ixtisaslarını bitirib. Hazırda o, magistratura təhsilini "Neyroinkişafi xəstəliklərdə mərkəzi sinir sistemi ilə periferik sinir sistemi arasındakı əlaqə" mövzusunda Zürix Universitetində davam etdirir. E.Yusifov 2020-ci ilin fevral ayında İsveçrə Neyroelm Cəmiyyətində (Swiss Society for Neuroscience, SSN) tədqiqat nəticələrini təqdim etmiş və "SSN"-nin üzvlüyünə qəbul olmuşdur. Eyni zamanda, DP məzunu B.Britaniya Səfirliyinin dünya üzrə təşkil etdiyi "FameLab" elmi yarışında İsveçrə üzrə final mərhələsinə vəsiqə qazanıb. E.Yusifova gələcək elmi nailiyyətlərində uğurlar arzu edirik.



## TURAL QULU

## ZÜMRÜD CƏLİLOVA

Dünya üzrə keçirilən "Study UK - British Council" yarışmasında qlobal finalçı seçilən Dövlət Proqramı məzunları Tural Qulu və Zümrüd Cəlilovanı təbrik edir, müsabiqədə uğurlar arzulayırıq.



WIDER EUROPE: Tural Gulu (Azerbaijan)

University of Sheffield

Tural is Head of the International Cooperation Division at the State Agency on Mandatory Health Insurance. He is responsible for cooperation with health-related international organisations such as World Health Organisation and UNICEF. He is working on various projects to strengthen health care system in Azerbaijan. Tural describes his time in the UK as life changing. He had the opportunity to develop skills, knowledge, and professional network to drive forward his career in public health.



WIDER EUROPE: Zumrud Jalilova (Azerbaijan)

University of Bristol

At Counterpart International Zumrud managed multiple training on business, entrepreneurship and digital marketing to improve employment opportunities for women, access to education and to counter violent extremism in 12 border regions. She taught Gender Studies in three languages at Baku State University and co-founded the first feminist collective Equals. Studying in the UK made her an independent thinker equipped to respond to intellectual, social and personal challenges in

Böyük Britaniyanın "London International Film School" universitetindən məzun olmuş Möhsün Quliyevin rejissoru və ssenaristi olduğu "Bastard" Filmi Türkiyədə keçirilən "International Changing Perspectives" Film Festivalının əsas mükafatının qalibi olub.




## NİCAT ABDULLA



Dövlət Proqramı çərçivəsində ODTÜ məzunu olmuş Nicat Abdullanın “Generalized Tensor Model for Numerical Investigation of Combustion and Flow Thermogasdynamics Considering Recombination and Disassociation Reactions in Liquid Rocket Engines” adlı tədqiqat işi cari ilin aprel ayında NASA və Amerika Aeronavtika və Astronavtika İnstitutu (AIAA) qurumlarının bərabər keçirdiyi "Propulsion & Energy" forumunda bölmədaxili dünya üzrə seçilən 24 texniki məqalədən biri olmuşdur.

# MƏZUNLARIN UĞURLARI



Annual Reports in Medicinal Chemistry

Available online 3 April 2020

In Press, Corrected Proof

## Nephroprotective natural products

Emil Jivishov [a], Lutfun Nahar [b], Satyajit D. Sarker [b]

[a] College of Humanities and Sciences, ADA University, Baku, Azerbaijan

[b] Centre for Natural Products Discovery (CNPD), School of Pharmacy and Biomolecular Sciences, Liverpool John Moores University, Liverpool, United Kingdom

Available online 3 April 2020.

Show less

https://doi.org/10.1016/bs.armc.2020.02.003

Get rights and content

Almaniyanın “Philipps-Universität Marburg” universitetinin məzunu Emil Civişovun “LJMU (UK) School of Pharmacy and Biomolecular Sciences”-in direktoru Prof. Sarker ve professoru Dr. Nahar ilə yazdığı və ilk korrespondent müəllifi olduğu "Annual Reports of Medicinal Chemistry" (Elsevier) kitab fəsli (book chapter) artıq online olaraq yayımlanıb.

ELSEVIER

Journal of Oral and Maxillofacial Surgery

Volume 78, Issue 5, May 2020, Pages 705-716



Anesthesia/TMJ disorders/facial pain

# Evaluation of Stresses on Temporomandibular Joint in the Use of Class II and III Orthodontic Elastics: A Three-Dimensional Finite Element Study

Vugar Gurbanov DDS, PhD *, Burcu Bas DDS, PhD †, Abdullah Alper Öz DDS, PhD ‡

* Oral and Maxillofacial Surgeon, Private Clinic, Bakü, Azerbaijan

† Associate Professor, Department of Oral and Maxillofacial Surgery, Ondokuz Mayıs University, Faculty of Dentistry, Samsun, Turkey

‡ Associate Professor, Department of Orthodontics, Ondokuz Mayıs University, Faculty of Dentistry, Samsun, Turkey




Dövlət Proqramı çərçivəsində Türkiyənin "Ondokuz Mayıs Üniversitesi" universitetindən doktorantura təhsil səviyyəsi üzrə məzun olmuş Vüqar Qurbanovun da müəllifi olduğu məqalə dünyanın ən nüfüzlu üz çənə cərrahiyə jurnalında ("Journal of Oral and Maxillofacial Surgery" (Elsevier)) yayınlanmışdır.

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*

**GÜNAY KAZIMZADƏ**

"Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqləndiyinə görə 2020-ci il Gənclər üçün Prezident mükafatı"






# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

**YANVAR-MAY 2020**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*


**Nərmin Bağırova**
**(narmin.baghirova@edu.gov.az)**

**Günel Orucova**
**(gunel.orucova@edu.gov.az)**


Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu